*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 243-247* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.243*

# Azadlıq carçısı Xəlil Rza Ulutürk

**Təranə Aslanova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: taranaibadova@gmail.com

**Annotasiya.** Məqalə Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürkün yaradıcılığından bəhs edir. Burada mübariz ruhlu şairin vətən məhəbbəti ön planda verilir. O, ömrünü millətin azadlığı uğrunda mübarizəyə sərf etmişdir. Şairin yaradıcılığı zəngin və çoxşaxəlidir. Təbiətə vurğunluq, insan sevgisi, vətən, torpaq mübarizliyi şairin yaradıcılığının əsas qayəsidir. Məqalədə qeyd olunur ki, şairin yaradıcılığında azadlıq ideyası da əsas amillərdən biridir. Azadlıq ideyası, həqiqətlərin reallığı bəşərin xilası, işıqlı gələcəyidir. Məqalə Ulu öndər Heydər Əliyevin aşağıdakı fikri ilə yekunlaşır, "Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün örnək olacaqdır".
**Açar sözlər:** Azadlıq, Xəlil, türk, vətən, dünya, mübarizə

**Məqalə tarixçəsi:** göndərilib – 04.09.2025; qəbul edilib – 19.09.2025

# Herald of Freedom – Khalil Rza Uluturk

**Terane Aslanova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: taranaibadova@gmail.com

**Abstract.** The article examines the works of Khalil Rza Uluturk, the national poet of Azerbaijan, emphasizing his profound patriotism and indomitable fighting spirit. Throughout his life, Uluturk remained dedicated to the struggle for national freedom, which became a central theme in his literary legacy. The body of his work is characterized by its richness and diversity, reflecting a deep affection for nature, a profound love for humanity, and an unwavering commitment to the defense of his homeland.
A key focus of the article is the concept of freedom, which emerges as a fundamental motif in Uluturk's work. For the poet, the pursuit of freedom and the affirmation of truth represent the path to humanity's salvation and a brighter future. The article concludes with the words of the Great Leader, Heydar Aliyev: "... I believe that the brilliant life of Khalil Rza, his great citizenship, and struggle for national freedom will serve as an enduring example for all Azerbaijanis".
**Keywords:** freedom, Khalil, Turk, homeland, world, struggle

**Article history:** received – 04.09.2025; accepted − 19.09.2025

## Giriş / *Introduction*

Azadlıq carçısı, mübariz, cəsur oxucularını, millәti, xalqı, dili, dini uğrunda durmadan mübarizәyә sәslәyәn Ulu Türkün Türk oğlu – Xәlil Rza Ulutürk! Tәxәllüsü ilә mәqsәdini, amalını sübut edәn şair ruhlu Xәlil Rza hәyatını türkün ulu keçmişinә, işıqlı gәlәcәyinә inanaraq mübarizәlәrdә keçirmiş vә әtrafına özü kimi millәtini, xalqını sevәn, onun yolunda canını qurban vermәyә hazır olan vәtәnpәrvәr insanları da toplaya bilmişdi.

## Əsas hissə / *Main Part*

**1. Azadlıq motivli şeirləri:** İlk dәfә "Odsevәr" imzası ilә şeirlәr yazan Xәlil Rzanın illәr keçdikcә qәlbinin dәrinliklәrindә alovlanan azәrbaycançılıq hissini heç bir qüvvә, heç bir manеә boğa bilmәdi. Zaman keçdikcә daha da alovlanmağa başlayan bu hissi onun ağ vәrәqlәr üzәrinә köçürdüyü misralar da deyir:

*İstәmirәm azadlığı qram-qram*
*Qolumdakı zәncirlәri qıram gәrәk qram-qram,*
*Azadlığı istәmirәm bir hәb kimi, dәrman kimi*
*İstәyirәm sәma kimi, günәş kimi, cahan kimi...* [5]

Hiss vә düşüncәlәrindә, mübarizliyindә ona güc gәlә bilmәyәn qüvvәlәr şairin get-gedә daha da qüvvәtlә hayqıran azadlıq sәsini boğmaq üçün ona fiziki tәsirlәr göstәrir, işindәn, müәllimliyindәn, tutduğu vәzifәlәrdәn uzaqlaşdırır vә belәliklә dә onun fәal fәaliyyәtini mәhdudlaşdırmağa nail olurdular. Şair Sabir Rüstәmxanlı yazır: "Xәlil Rzanı başa düşmәyәnlәr çox idi. Onun cәsarәtli vәtәndaşlıq şeirlәrini dinlәmәkdәn belә qorxanların sayı min-min idi. O, kürsüyә qalxanda durub salonu tәrk edirdilәr. Xәlilin antisovet, antiimperiya çıxışlarına dәlilik kimi baxanlar, onun sәsini kәsmәyә çalışan, yüksәk kürsülәrә yolunu bağlayan , onu kiçiltmәk istәyәnlәr Xәlil Rza istedadının Allah vergisi olduğunu, şairin Allah hökmü ilә danışdığını dәrk edә bilmirdilәr" [2, s.15].

Hәqiqәtәn, Xәlil Rzanın çılğınlığı vә bu çılğınlığın onu mübarizәlәrdә daha da öndә gedәrәk geniş bir xalq kütlәsini arxasınca aparmağa qadir olmasının әsas amillәrindәn biri idi. 1988-ci ildә xalq hәrәkatının aparıcı qüvvәlәrindәn biri olan Xәlil Rza dinclik bilmәdәn, yorulmadan kütlә, xalq qarşısına çıxaraq onları düşmәnlәrә qarşı mübariz olmağa sәslәyir vә bu yolda ölümün belә gözünün içinә dik baxmağı şәrәf hesab edirdi. Qara qüvvәlәrin mәkr vә hiylәsi ilә 1990-cı il yanvarın 26-da hәbs edilәrәk Moskvaya – Lefortovo hәbsxanasına göndәrilir. Oradakı çәtin hәyat tәrzi dә şairin әzmini, iradәsini qıra bilmir. Əksinә günü-gündәn fikir vә düşüncәlәrindә, mәqsәd vә amalında daha da möhkәmlәnәn şair ruhu bütün olub keçәnlәri tarixin yaddaşına hәkk etmәk üçün " Lefortova gündәliyi"ni yazır. Bu gündәliyә daxil olan şeirlәr, poemalar, mәktublar, xatirәlәr şairin ağrılı-acılı günlәrinin acı xatirәsinә çevrilir. "Lefortova gündәliyi"ndәn:

*Kameraya sığmıram, kameranız kiçik, dar*
*Qıy vursam qәzәbimdәn yer dә, göy dә dağılar.*
*Addımların altında taxta, qırmızı taxta,*
*Bәlkә donub, bәrkiyib qızıl qan laxta-laxta.* [5]

Xәlil Rza tәxәyyülü üçün sәciyyәvi olan bu bәnzәtmәlәr, mübaliğәlәr poetik düşüncәsinin qüvvәtini, tәsirini daha da artırır.

Qeyd edәk ki, şair uzun bir hәyat yolu keçәrәk öz әsәrlәrini "Xәlil Xәlilov", "Xәlil Rza", "Xәlil Odsevәr" tәxәllüslәri ilә çap etdirmişdi. Xәlil Rza tәkcә şair deyil, hәm tәrcümәçi, hәm tәnqidçi, hәm jurnalist, hәm müәllim, hәm dә sözün әsl mәnasında böyük insan idi. Onun 1984-cü

ildə "Ömürdən uzun gecələr" adlı kitabı, onun ardınca isə SSRİ xalqlarının dillərindən tərcümə olunmuş poetik əsərlərdən ibarət kitabı çap olunmuşdur. Bütün yazarlar kimi, onun da yaradıcılığında vətən məhəbbəti, sədaqət, fədakarlıq, torpaq sevgisi, sülhə çağırış, azadlıq kimi dəyərlər tərənnüm edilmişdir.

**2. Vətən mövzusu:** Azərbaycanı sevmək, vətəni sevmək hələ hər şey demək deyildir. "Vətən uğrunda ölən varsa vətəndir" amalı ilə yaşayan şairin həyat devizinə çevrilərək hayqıran səsi azadlıq mübarizəsiydi. Bütün həyatı və yaradıcılığı boyu Azərbaycanın azad, müstəqil dövlət olması arzusu ilə yaşayan şairin azadlıq carçısına çevrilməsi onun bütün əsərlərində öz əksini tapır. Şair bir şeirində özünü belə tərənnüm etmişdir;

*Mən günəş ürəkli Xəlil Rzayam,*
*Yer boyda , göy boyda təbiətim var.*
*Reyhan yarpağından qarışqayacan ,*
*Yurdumda hər kəsə məhəbbətim var.* [5]

Vətənimiz Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinə hörmət və məhəbbətlə yanaşan şairin bu hissləri , duyğuları aşağıdakı misralarda bir daha öz əksini tapır:

*Lahıc da, Ləzgi də, Tat da, Talış da,*
*Kürd, Udin, Rutul da var- dövlətimdi.*
*Azərbaycanın qucaqladığı,*
*Bağrına basdığı can sərvətimdi,*
*Fəxrim, qol-qanadım, şan-şöhrətimdi!* [5]

Zəngin yaradıcılığa malik olan şairin bütün əsərlərində vətən məhəbbəti ilə yanaşı, insan sevgisi də ön planda durur. İnsana məhəbbət, qayğı, dosta sədaqət, ata və anaya olan sonsuz sevgi, hörmət hissi şairin şeirlərində bədii, obrazlı şəkildə tərənnüm olunur.

**3. Elmi əsərləri:** Ömrünü bütünlükdə elmə, yaradıcılığa həsr edən şair həm ədəbiyyatşünas alim, həm də gözəl tərcüməçi və tənqidçi idi. Onun Azərbaycan elminə bəxş etdiyi neçə-neçə elmi məqalələri, araşdırmaları, "Maqsud Şeyxzadənin bədii yaradıcılığı və Azərbaycan–özbək ədəbi əlaqələrinin aktual problemləri" mövzusunda doktorluq işi zəngin araşdırmalar nəticəsində ərsəyə gəlmiş sanballı elmi əsərdir. İstər irihəcmli, istər kiçikhəcmli, həm elmi, həm də bədii yaradıcılığında şair öz sözünü deməyi bacarmış və Azərbaycan ədəbiyyatı tarixində həmişəyaşar zirvəyə ucalmışdır.

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan, ona bütün varlığı ilə xidmət edən Xəlil Rza dediyi sözün, düşündüyü fikrin məsuliyyətini daşıyaraq, qarşısına qoyduğu məqsəd və amalına çatmağın da sonunu öncədən görərək böyük duyğu hissi və inamla addımlamağı bacarmışdır. Möhkəm iradəyə malik olan bu insan addımladığı, mübarizə apardığı müstəqillik, azadlıq yolunda qəlbində yanan ümid çırağına inanaraq daim irəli baxıb yurdunun, millətinin, xalqının işıqlı gələcəyinə qəlbən inanmışdı və bu yolda mübarizəsini davam etdirmişdir.

Xalq şairi Hüseyn Arif yazır: "Xəlil Rza poeziyası hər cür mərəzə, süstlüyə və bədbinliyə meydan oxuyan qüdrətli bir ruhun hayqırışlarıdır. Bu mübarizə dəmir iradə poeziyasıdır" [1].

Əməkdar incəsənət xadimi Rəfiq Zəka Xəndan: "Xəlil Rza Ulutürk günəşi zindandan çıxdı, həyatda ikən Türk dastanına qəhrəman oldu" [1].

Xalq şairi Zəlimxan Yaqub: "Xəlil Rza kimi oğullar az-az doğulsa da , xalqa bərabər olan bir qüdrətə çevrilir. İnanıram ki, Xəlil Rzanın qəhrəmanlıq poeziyası gələcəkdə bütün ataları Xəlil Rzaya, bütün oğulları qəhrəman Təbrizə çevirəcək" [1].

Görkəmli insanlar tərəfindən Xəlil Rza haqqında deyilmiş bu önəmli, qiymətli fikirlərin siyahısını artırmaq da olar. Alim və ziyalıların düşüncələrindən nümunə çəkdiyimiz bir neçə misal şair haqqında qələm dostlarının, azadlıq carçısı Xəlil Rzanın dəyər və qiymətini bir daha sübut edir.

Türkçülük, azərbaycançılıq ideyalarına əsas önəm verən şairin yaradıcılığı azad, firavan Azərbaycanın, bütöv Azərbaycanın keşiyində əsgər kimi dayanan bir poeziyadır. Xəlil Rza yaradıcılığının zivəsi onun bütün şeirlərində görünməkdədir. Bu baxımdan şairin klassik ədəbiyyata verdiyi dəyər, qiymət, Nizami, Füzuli, Nəsimi yaradıcılığından bəhrələnərək yazdığı misralarda duyulmaqdadır:

*Kimdir ən böyük şair?*
*Mənim babam Nizami!*
*Ən qəhrəman sənətkar?*
*İmadəddin Nəsimi!* [1]

Torpağına, daşına, suyuna, çörəyinə, şairinə, bəstəkarına, bütünlükdə doğma elinə sonsuz məhəbbət bəsləyən şairin qəlbində böyük, sonsuz məhəbbət alovu yanaraq istisi ilə hələ neçə-neçə nəsilləri isidəcək, yolunu nurlandıracaq. Budur, mübariz ruhlu, şair qəlbli Xəlil Rza poeziyası! Xəlil Rzanın şeirlərində milli özünüdərk azadlıq ideyalarının gerçək ifadəsidir. Bu gerçəkliyi onun azad Azərbaycanla bağlı bütün yaradıcılığına aid edə bilərik. Şairin "Mən Azərbaycanam!" şeirini həyəcansız oxumaq mümkün deyil. Vətən torpağının ulu keçmişinin, qovğalı bu gününün şahidi olan şair, eyni zamanda onun işıqlı, azad gələcəyinə inanaraq əbədiyaşar Azərbaycanı şeirlərində vəsf etməkdən yorulmur.

Xəlil Rza Azərbaycan poeziyasının milli ruhunu yaradıcılığında yaşatmağı bacaran şairlərdəndir. O, şair, yazıçı, publisist, tərcüməçi, ədəbiyyatşünas alim olmaqdan savayı, ən əsası böyük bir şəxsiyyətdir. Bu sözün böyüklüyünü özündə yaşadan şair çoxsaylı insanların kumirinə çevrilmiş və özü kimi mərd, cəsur, igid, açıqfikirli, mübariz oğulların böyüməsində, formalaşmasında onlara bir örnək olmuşdur. Özü də bilmədən, bunun mahiyyətinə varmadan ucalığın zirvəsində dayanan şair son nəfəsinə qədər öz amalı, məqsədi yolunda mübarizlikdən əl çəkmədi. Məhz ona görə də onu "azadlıq carçısı", – deyə adlandırırdılar. "Ot kökü üstə bitər", – deyib atalar. Vətəninin ərazi bütövlüyü, müstəqilliyi uğrunda canından keçmiş Təbriz qanını, canını, vicdanını, sinəsində daşıdığı ürəyini vətən torpağı uğrunda fəda etdi. Bu, başqa cürə ola da bilməzdi. Çünki "oddan törəyən od olar", – deyib atalar. Canından çox sevdiyi oğlunu itirən şair bunu həyatının faciəsinə çevirmədi. Xəyallarında qurduğu, ümidlə inandığı, azad, bütöv Azərbaycan uğrunda şəhid olmuşdu onun Təbrizi. Bu itki şairi faciə yox, qürur, təmkin, daha möhkəm iradə ilə addımlayıb məqsədinə çatmağa sövq etmişdi. Oğlu Təbrizin simasında bütün şəhid və şəhid analarına ithaf etdiyi misraları həyəcansız oxumaq mümkün deyil:

*O qarlı dağlara diqqətlə bax bir,*
*Bəlkə analardır, ağarıb başı.*
*Analar dünyaya oğullar verir,*
*Dünya analara acı göz yaşı.* [4]

Bu gün adlarını hörmətlə andığımız, bir ömür boyu borclu olduğumuz şəhidlərimizin sırasında Xəlil Rza Ulutürkün Türk oğlu Təbrizin də adı çəkilir, anılır.

Ölməzliyi ilə dünyaya meydan oxuyan şair özü də bilirdi ki, ölümsüzdü, çünki vətən, torpaq uğrunda vuruşan, çarpışan, can verən heç kim ölmür, unudulmur. Xəlil Rza da Turan ellərinin Ulutürküdür. Təxəllüsünü əbəs yerə seçməyən şair həmişəyaşar Türkün əbədiliyini həm yaşarkən, həm də özündən sonra əbədiyyətə qovuşdurmağı bacardı. Müstəqil Azərbaycanın azadlığı, bütövlüyü uğrunda apardığı mübarizədə qalibiyyət sevincini özü yaşamasa, görməsə belə, xalqı, milləti qalib çıxaraq onun da göylərdə pərvazlanan ruhunu şad etdi.

*Buludu şimşəklə parçalayaraq,*
*Zülməti nur ilə boğacağam mən.*
*Qərbdə ulduz kimi batsam, Şərqə bax,*

*Şərqdən günəş kimi doğacağam mən !*
*İtib batmaq üçün yaranmamışam,*
*Dünənəm, bu günəm, gələcəyəm mən!* [4]

## Nəticə / *Conclusion*

Həqiqətən dünənimizi, bu günümüzü, gələcəyimizi yaradıcılığında və ruhunda yaşadan şair zülmətdə doğan Şərq Günəşitək işığı ilə aləmlərə nur saçacaq. Sonda Ulu öndər Heydər Əliyevin Xəlil Rza haqqında dediklərindən;

"Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır" [3].

Həqiqətən şəxsiyyətini, amalını, məqsədini, inamını, mübarizliyini, bütünlükdə işıqlı həyatını vətənsevər insanlara örnək olaraq yaşayan Xəlil Rza Ulutürk yaşayıb, yaşayır, yaşayacaqdır.

## Ədəbiyyat / *References*

1. Haqq pərvanəsi – Xəlil Rza: metodik vəsait. – Bakı, 2017, 40 s.
2. Qaraoğlu Fazil. "Tarixdə iz buraxanlar: Xəlil Rza Ulutürk". – Bakı: Xəbər, 2017, 17 oktyabr.
3. Nəbiyev Bəkir. Seçilmiş əsərləri, III cild. İstiqlal şairi. – Bakı: Çinar-Çap, 2009, 616 s.
4. Ulutürk Xəlil Rza. Seçilmiş əsərləri, II cild. – Bakı: Şərq-Qərb, 2005, 247 s.
5. Ulutürk Xəlil Rza. Seçilmiş əsərləri, I cild. – Bakı: Şərq-Qərb, 2005, 293 s.

## Вестник свободы – Халил Рза Улутюрк

**Тарана Асланова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: taranaibadova@gmail.com

**Резюме.** В статье анализируется творчество народного поэта Азербайджана Халила Рзы Улутюрка. Любовь к родине поэта-борца на переднем плане. Поэт посвятил всю жизнь борьбе за свободу и независимость своего народа. Творчество Х.Р.Улутюрка, богатое и многогранное, включает в себя любовь к природе, любовь к человечеству, любовь к родине, родной земле. Главная идея его поэзии – борьба за свободу, за родные земли.
В статье подчеркивается главный фактор творчества поэта – идея свободы.
Идея свободы и независимости, жизненная правда и реалии ведут к спасению человечества и к светлому будущему. Автор статьи в заключение цитирует великого вождя народа Гейдара Алиева: «Думаю, что яркая жизнь Халила Рзы, его гражданская позиция будут служить ярким примером для всех азербайджанцев в борьбе за национальную независимость».
**Ключевые слова:** независимость, Халил, тюрк, родина, мир, борьба